

# Şamsız Zəngəzurun qədim kəndidir.

**Şamsız (Dzorak) – Zəngəzur mahalının qədim tarixə malik olan kəndlərindən biridir. Şamsız kəndi Qafan – Gorus yolunun sağ tərəfində Ağbulaq, Qurdqalaq və Şurnuxu kəndlərinə yaxın, meşənin içərisində, Daşbaşı – dağın ətəyində, Gorus – Qafan yolu ilə Ağbulaq kəndi arasında yerləşir.**

Ata yurdum olan Şamsız kəndi Zəngəzur mahalının Gorus rayonuna aid olan beş azərbaycanlı kəndindən biridir. Bu kənd ata - babalarımızın bizə qoyub getdiyi ən böyük sərvətdi. Qədim tarixə və zəngin mədəniyyətə malikdir. Bu toponim P. Zelinskinin tədqiq etdiyi qeydlərdə vardır. Q. Qeybullayev o adın Qızılbaş tayfasından olduğunu qeyd etmişdir.

Kənddə 1897-ci ildə 124 nəfər, 1914- cü ildə 186 nəfər, 1916 –cı ildə 911 nəfər azərbaycanlı yaşamışdır. 1918 –ci ildə kəndin əhalisi erməni quldur dəstələrinin hücumuna məruz qalaraq kəndi tərk etməyə məcbur olmuşlar. Yalnız indiki Ermənistanda sovet hökuməti qurulandan sonra sağ qalanlar tarixi etnik torpaqlarına dönmüşlər. Burada 1926- cı ildə 54 nəfər, 1931- ci ildə 52 nəfər, azərbaycanlı yaşamışdır. 1949 – cu ilin oktyabr ayına qədər kəndin 26 evdən
( bəzi evlərdə 2- 3 ailə yaşayıb) ibarət əhalisi kənddən çıxarılmış, deportasiya olunmuşdur. Deportasiya olunanlar əsasən Yevlağın Malbinəsi, Salahlı kəndlərində, Bərdənin Cijimli kəndində və Ağdamda məskunlaşmışlar.

1941-1945 –ci illərdə Böyük Vətən müharibəsi zamanı şamsızlılarda müharibədə ıtirak etmişdir. Onlardan 13 nəfəri müharibədən qayıtmış, 4 nəfəri isə qayıtma
mışdır.

1935-ci ildə kənddə “26 komissar” adına kolxoz qurulmuş, ibtidai sinif, klub, mağaza 1949- cu ilə qədər fəaliyyət göstərmişdir. Deportasiyadan bir neçə il sonra vətən həsrəti ilə yaşayan şamsızlı ailələrdən bəziləri Şamsız kəndinə qayıdıb və orada yaşamışlar.

Edit with WPS Office

Lakin kəndin kolxozu Ağbulaq kəndinin kolxozu ilə birləşdirildi. Ferma isə Şamsız kəndində yerləşirdi. İbtidai sinif yenidən açıldı və 1974 –cü ilə qədər fəaliyyətini davam etdirdi. Mağaza isə bir evin zirzəmisində yerləşmişdir. 1988-ci ilə qədər fəaliyyət göstərmişdir. 1988- ci ildə isə kəndin əhalisi yenidən erməni təcavüzünə məruz qalaraq kəndi məcburən tərk etmişlər.

Təbiətin bütün gözəlliklərini özündə əks etdirən Şamsız kəndini, Ağbulağa gedən yol iki yerə ayırır. El arasında yoldan yuxarıda olan hissəyə yuxarı məhlə, yoldan aşağıda olan hissəyə isə aşağı məhlə deyilir. Kənd dağın ətəyində, daşbaşının altında meşənin içərisində yerləşir. Kəndin toponimlərinə Yuxarı məhlə, Aşağı məhlə Süleyman bulağı, Ağ bulaq, Xor-xor bulaq, Soyuq bulaq, Ayna bulaq, Xallava bulağı, Qəhrəman bulağı, Taxta körpü, Daş körpü, Qum dərəsi, Sulu dərə, Kəpəz dağı, Daşbaşı, Kaha, Dəf yalı, Kotan yalı, Üç ağac, Alçalıq, Armudluq, Almalıq, Cilli çəmən, İsmayıl çəmənliyi, Şamolu yurdu, Təpəsər və Biçənək daxildir.
1949 –cu ilə deportasiyaya məruz qalan, vətən həsrəti ilə dünyadan köçmüş Şahsuvar Cəfərov yazdığı bayatılarında kəndə aid toponimlərin adlarını çəkmişdir.

## Şamsız bayatıları

Əzizim Daşbaşına,
Çıxaydım daş qaşına,
Ordan hər yana baxıb,
Güc verib göz yaşına.

Əzizim Kəpəz qaldı,
Baxmadıq Kəpğz qaldı
O bahar köç eylədi
Yurdunda Kəpəz qaldı.

Əzizim Xor-xor bulaq,
Dəf yalı, Xor-xor bulaq,
Vətən ermənniyə qaldı,

Əzizim Sulu dərə
Su vermə sulu dərə
Vətən düşmənə qaldı
Qalasan quru dərə.

Əzizim Cərgədaşı,
Tarixdir Cərgədaşı
Biz köçdük, sən qalırsan
Cərgələn Cərgədaşı.

Əzizim Kotan yalı,
Böyük yer, Kotan yalı
El köçdü, oba köçdü,

Edit with WPS Office

Xorulda Xor-xorbulaq.

Əzizim Ayna bulaq,
Gözündən qayna bulaq,
Elimiz köç eylədi,
Dərdimi söylə, bulaq.

Əzizim Qanlı gədik
Qədimdən Qanlı gədik
Erməni qan axıtdı,
Sən qaldın qanlı, gədik.

Əzizim ay Niyadar,
Hökumət Verdi qərar
Elimiz köç eylədi
bir
Yurdu qaldı tarimar.

Əziziyəm boy out
Kəklikotu, boyotu
Çayına mən həsrətəm
Söyləyirəm bayatı.

Əzizim Qalaboynu,
Çay zəmi, Qala boynu,
damları.
Rusun fitvası ilə
Erməni qurdu oynu.

Hər yanda qaldı xalı.

Əzizim Təpəsərdən,
Yel əsdi mənə sərdən,
Mikoyan hiylə qurdu
Milləti etdi sərgən.

Əzizim ay bənövşə,
Lalə, nərgiz, bənövşə
Biz köçdük siz qaldınız
Bəzək vurun dağ döşə.

Əzizim uzun meşə,
Bu dərdə dözüm meşə
Arzum budur səndə

Doyunca gəzim meşə.

Əzizim zirə qaldı,
Qantəpər, zirə qaldı
Şamsıza qayıtmağım
Qiyamət günə qaldı.

Əzizim div damları
Daşdandı div

Şamsız xaraba qalıb
Yox imiş adamları.

Şamsız haqqında Təvəkkül Goruslunun “Şamsız”, kənd sakini Zərifə Əliyeva “Kəndimiz” adlı şeirlər, Qiyas Quliyev “Şamsızdan gələn köç” adlı əsər yazmışdır.

I Qarabağ döyüşləri zamanı Şamsızda anadan olmuş Quliyev Seymur Misir oğlu 02. 09. 1992 – ci ildə Sırxavənd kəndi uğrunda gedən döyüşlərdə qəhrəman

Edit with WPS Office

casına şəhid olmuşdur. Şamsız kəndində anadan olmuş orada böyümüş 1949 -cu ildə deportasiya olunan 1934 – cü il təvəllüdlü mülki şəxs Əliyeva Sürəyya Bayram qızı Xocalı faciəsi zamanı şəhid olmuşdur. Əslən Şamsız kəndindən olan daha 3 nəfər Qarabağ döyüşlərində şəhid olub, 6 nəfər isə müharibə Onlar döyüşlərdə iştirak edərək medallarla təltif edilmişdir.
Görkəmli alim, tex.e.d. professor Xansuvar Fərzəli oğlu Cəfərov, Azərbaycan Milli Ensiklopediyasında adı var), Sosialist Əməyi Qəhrəmanı Tamara Bəbir qızı Heydərova ( Azərbaycan Sovet Ensiklopediyasında adı var), Beynəlxalq dərəcəli hakim, Boks üzrə SSRİ idman ustası Məmməd Fətəli oğlu Eyvazov(ibtidai sinfi Şamsızda, 8-ci sinfə qədər isə Ağbulaq kəndində oxuyub) Şamsız kənd sakinləridir. Əslən Şamsızdan olan bir çox tanınmış şəxsiyyətlərdən biri də Filologiya elmləri doktoru, professor Zahid Xəlildir.
Şamsız kəndində 1988 –ci ildə əhali kəndi tərk etməyə məcbur olmuşlar. Ermənilər Ağbulaq kəndindən olan Əsgərov Bərxudarı da qətlə yetirmişdilər.
Hələ 1944- cü ildə Şamsiz kəndinin kolxoz sədri Sona Məmmədova (quçağında körpə uşağı), sovet sədri Adıgözəlov Usub və kəndin ibtidai sinif müəllimi İsa Quliyev rayon mərkəzindən qayıdarkən taxta körpüdə erməni əsilli qaçaq Levon onların qarşısını kəsmiş və atəş açmışdır. Bu zaman Sona Məmmədova atdan yıxılmış başından xəsarət almışdır. Qızı Zərqələm isə heç bir xəsarət almamışdır. Zərqələm hal –hazırda Yevlax şəhərində yaşayır.
Kənd ta qədimdən ermənilərin təcavüzünə dəfələrlə məruz qalmışdır.
Qəbrista lıq Gorus –Qafan yolundan kəndə tərəf döndükdən sonradaş körpüdən kənd istiqamətində, yolun sağ tərəfində 150 – 200 m məsafədə dağın döşündə yerləşir. Qəbristanlıqda yeni məzarlarla yanaşı köhnə məzar da əhali tərəfindən qorunub saxlanırdı. Əhali kəndi tərk etdikdən sonra məzarlar ermənilər tərəfindən dağıdılmışdır. Hal – hazırda peyk vasitəsilə baxdıqda evlərin də ermənilər tərəfindən dağıdıldığı aydın görünür. Kənddə yerləşən ferma binasının (kolxoz birləşsə də ferma Şamsız kəndində idi)dağıdılmaması aydın görünür. Fermanın qarşısında maşınların

Edit with WPS Office

**olması onu göstərir ki, ermənilər fermadan istifadə edirlər.**
**Vətən həsrətilə yaşayan  şamsızlılar ümid edirlər ki, tezliklə dədə-baba torpaqlarına qayıdacaqlar. O günü səbirsizliklə gözləyirlər.**



Edit with WPS Office